**Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1268 nömrəli Sərəncamı ilə təsdiq edilmiş 2 nömrəli Əlavə – "Azərbaycan Respublikasında dövlət qulluqçularının aylıq vəzifə maaşları"nda dəyişiklik edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1268 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, 6, maddə 1104, 7, maddə 1250, 8, maddə 1440; 2020, 4, maddə 468, 6, maddə 754; 2021, 2, maddə 151) ilə təsdiq edilmiş 2 nömrəli Əlavə – "Azərbaycan Respublikasında dövlət qulluqçularının aylıq vəzifə maaşları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.4.4-cü yarımbəndə üçüncü halda "sektor müdiri" sözlərindən sonra ", baş mühasib" sözləri əlavə edilsin.
2. 1.5.3-cü yarımbənd ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 iyul 2021-ci il
2779